# "QARADAĞ MAŞINQAYIRMA" ASC -nin maliyyə hesabatları və auditor rəyi

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Auditorlar Palatasının verdiyi kod: IBhwXTSFYe

**"QARADAĞ MAŞINQAYIRMA" ASC , VÖEN 1100137361 təsisçilərinə**

**Şərti müsbət rəy**

Mən "QARADAĞ MAŞINQAYIRMA" ASC , VÖEN 1100137361 (bundan sonra "Cəmiyyət") (Bundan sonra - "Cəmiyyət") 01 yanvar 2022-ci il tarixdən 31 dekabr 2021-ci il tarixinədək olan dövrün maliyyə hesabatlarının auditini aparmışam. Hesab edirəm ki, hesabatımızın "Şərti müsbət rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir .

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik**

Diqqət koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı şirkətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəldilməlidir. Hazırki şəraitdə Cəmiyyətin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcuddur. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

**Şərti müsbət rəy üçün əsaslar**

Cəmiyyət öz maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq tərtib etməlidir. Təqdim olunmuş hesabatın həmin standartlara tam müvafiqliyi təmin olunmalıdır.

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və biz digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**TNM AUDİT -nin direktoru** **Talıbov Nəcəf Musa oğlu**

**Azərbaycan Respublikası, AZ1072, Bakı, Bakuvi k. 35.**

***İcazə: SA/137, 29.01.2019***

**07 iyul 2023-cü il**